# 93 illik tarixi yaşadan qəzet

**Mətbuata sonsuz bağlılıq nümunəsini peşəkarlığı və işgüzarlığı ilə təsdiqləyən jurnalist Salam Cavadlı ilə müxtəlif tədbirlərdə rastlaşsaq da, budəfəki görüşdə məqsədim rayon qəzetinin arxivi və fəaliyyəti barədə idi. Söhbətə başlayan həmkarım bildirdi ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Şanlı Ordumuzun heyrətamiz hünəri, rəşadəti sayəsində azadlığına qovuşan doğma Zəngilanda ilk yerli qəzet 1932-ci ilin sonlarında "Qızıl Zəngilan" adı ilə fəaliyyətə başlamışdır.**



O vaxt rayonda ali təhsilli mütəxəssis olmadığına görə qəzetin ilk redaktoru Bakıdan rayona ezam edilmiş fəhlə Əhməd Bədəlzadə idi. Emblem yerində traktor təsviri verilən rayon qəzeti Maşın Traktor Stansiyası Siyasi Şöbəsinin orqanı olmaqla kollektivləşmədə, xüsusən rayonun kolxozlarında maşın-traktor parklarının yaradılmasında mühüm rol oynamışdır.

Uzun illər rayon qəzetində müxtəlif vəzifələrdə çalışan Salam Cavadlı Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvü, "Qayanın tənha daşı", "Ağ yağış", "Son gümanım - Zəngilanım", "Müqəddəs ruhları sızladan 20 il", "Pyeslər" şeir və nəsr kitablarının, sayı bilinməyən publisist və mənəvi dəyərlərlə zəngin olan yazıların müəllifi, "Qardaşlar" toplusunun həmmüəllifi kimi tanınır. Prezident İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına, Həsən bəy Zərdabi adına müxtəlif mükafatlara layiq görülüb.

Həmsöhbətim qəzetin arxivinə toxunaraq dedi ki, yerli mətbuat orqanı müxtəlif adlar altında fəaliyyət göstərib. SSRİ-də "ellər atası" Stalinin şöhrətini artırmaq üçün geniş kampaniya başlanarkən 1937-ci ildə qəzetin adı dəyişdirilərək "Stalinçi" qoyulmuşdur. Sov. İKP XX qurultayının şəxsiyyətə pərəstiş haqqında qərarı ilə əlaqədar 1956-cı ildən rayon qəzeti 6 il "Zəngilan kommunisti" adı ilə nəşr edilmişdir.

1963-cü il may ayının 1-dən Zəngilan rayon istehsalat idarəsinin orqanı olmaqla "Kənd həyatı" adı ilə Zəngilan, Qubadlı və Laçın rayonlarının qəzet kimi nəşr olunub. 1992-ci ildə rayon qəzeti öz tarixi ərzində 5-ci dəfə ad dəyişikliyinə məruz qalmışdır. Həmin ilin ikinci yarısından "Zəngilanın səsi" adlandırılan rayon qəzeti bu vaxta qədər fəaliyyət göstərmişdir.

Qəzetin arxivini saxlayan Salam Cavadlı vurğuladı ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Zəngilan rayonu işğal ediləndə mən bütün çətinliklərə baxmayaraq, qəzetin çoxillik bağlamalarını da götürdüm. Çünki uzun illər topladığım qəzetlərdən uzaq düşə bilməzdim, ilk andan hiss edirdim ki, mənəvi cəhətdən boğuluram. Məcburi köçkünlük dövründə qarşılaşdığım müxtəlif problemləri yaxına buraxmamaqla qəzetin arxivindən bir an belə uzaqda dura bilmədim. Bilirdim ki, işğal altında olan torpaqlarımız mütləq qaytarılacaq və rayonumuz da yenidən qurulacaq və həmin vaxt zamanın tarixini yazan mətbuat bizə gərək olacaq.

Həmsöhbətim qeyd etdi ki, rayon qəzeti ötən 93 ildə müxtəlif adlar ilə nəşr olunsa da, həmişə nəcib ideya və məqsədlərə xidmət etmişdir. Zəngilanın sosial-iqtisadi inkişafında, əhalimizin maariflənməsində, gənc nəslin vətənpərvərlik tərbiyəsində, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnməsində, həyatımızın rəvan axarına, yüksəlişinə mane olan əngəllərin aradan qaldırılmasında müstəsna xidmətlər göstərmişdir. Əgər rayon qəzetinin saralmış dəstləri arxivlərdə qorunub saxlanmasaydı, bu gün biz doğma yurdumuz haqqında çox məhdud təsəvvürlərə malik olardıq.

30 ilə yaxındır ki, aylıq qəzet olaraq Zəngilanın varlığının, elimizin yekdilliyinin nişanəsi, simvolu kimi işıq üzü görür. Didərginlik illərində təsəlli yerinə çevrilərək əhalimizi bir məqsəd ətrafında birləşdirən rayon qəzetinin indiyədək 5981 sayı çapdan çıxmışdır. Qəzetin 1932-ci ildən bu günə qədər çap olunan saylarını vərəqlədikcə, 93 illik tariximizin aynası ilə əyani tanış oluruq. Çünki müxtəlif adlarla fəaliyyət göstərən mətbuat orqanı dövrün, zamanın üzərinə işıq saçır.

Arxivi bir müddət son dərəcə çətin şəraitdə saxladığına toxunan həmkarım bildirdi ki, köçkünlük dövrünün ilk illərində normal yaşamağa belə yerimiz yox idi, hamı gündəlik güzəranını düşünən vaxt mən sakitcə ailəmlə yanaşı arxivin taleyini də fikirləşirdim. Bu səbəbdən də bir müddət onu doğmaların evinin damında saxlamalı oldum, hətta bəzən giley-güzarla da qarşılaşırdım, amma evdəkilər bilirdi ki, məni yaşadan qəzetin arxividir. Hətta mütəmadi arxivə baş çəkməyi də unutmurdum, narahat olurdum ki, birdən yağış korlaya bilər. Bu qəzetləri saxlamaq üçün köçkünlük dövründə nə qədər əziyyət çəksəm də, mənəvi cəhətdən rahat idim. Çünki mətbuata qəlbən bağlı olmuşam və öz yazılarımla yanaşı qəzetimizdə çap olunan xəbərdən tutmuş bütün yazılara böyük sevgi ilə yanaşmışam və indi də sevə-sevə oxuyur, özüm üçün lazımi təhlilləri aparıram. 15 sentyabr 1952-ci ilə "Stalinçi" adı ilə çıxan qəzetimizdə çap olunan "Məhkəmədə" başlıqlı yazını mühüm əhəmiyyət kəsb etdiyinə görə "Zəngilanın səsi" qəzetində 2020-ci ildə "68 "yaşlı" xəbər-ağrı, kədər!" başlığı ilə təkrar çap etmişəm.

Qəzet səhifələrində el-obasından didərgin düşən soydaşlarımızın həyatından, doğma torpaq uğrunda canlarından keçmiş igid oğullarımızın döyüş yolundan, məktəblərimizdə təlim-tərbiyə sahəsində görülən işlərdən, xüsusilə ümummilli lider Heydər Əliyevin dühası, Prezident İlham Əliyevin müdrik, qətiyyətli siyasəti ilə müstəqil dövlətimizin nail olduğu iqtisadi-sosial uğurlardan, digər aktual məsələlərdən müxtəlif janrlı dolğun yazılar dərc edilir.

Həmsöhbətim qeyd etdi ki, yurd yanğısı ilə yaşadığımız illərdə yerli mətbuta rəhbərlik edərək qəzet yazılarının çapa hazırlanması proseslərini, eləcə də nəşrlə bağlı digər qayğıları heç bir kömək gözləmədən təmənnasız icra etməkdən qürur duyub və bunu imkan daxilində axıradək yerinə yetirməyə çalışıb.




Jurnalist Salam Cavadlının mətbuata bağlılığı bu gün də yaşayır. Mövcud qanunvericiliyə uyğun olaraq təsisçisi və baş redaktoru olduğu "Yeni Zəngilan" ictimai-siyasi regional qəzetini təqaüdü hesabına çap edərək pulsuz yayımını təşkil etməklə kitabxanalara, həmyerlilərinə paylayır və müvafiq qurumlara göndərir. Bunu bilən qələm sahibləri də qonorarsız aktiv fəaliyyət göstərir və "Əkinçi" qəzetinin ənənəsini yaşadırlar. Nəticə etibarilə 1932-ci ildən çap olunan rayon qəzeti 1875-ci ildə əsası qoyulan qəzetçiliyin tarixi ənənəsini bu gün yaşadır.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**